# Bəzz qalası fotoların dili ilə

Əzizim bizim qala,
Həmişə bizim qala,
Tikmədim özüm qala,
tikdim ki, izim qala.

**(Xalq bayatısı)**

***BSSZZ QALASI***

Qalaların da insanlar kimi taleyi var. Tarixin qan yaddaşında.

İnsanlar, özü də yaradıcı insanlar kimi taleyi gətirən qalalar da olub, ara müharibələri, qanlı döyüşlər nəticəsində dağıdılıb, məhv edilənləri də. Azərbaycanın ən hündür və möhtəşəm qalalarından biri olan Bəzz taleyi gətirən qalalardandır. Böyük bir dağın qat-qat açılan yoxuşunda yerləşən Bəzz qalası sanki bir qaya damarına yapışıb və onu daim ziyarət və səyahət edənləri heyrətdə qoyub.

Respublikamızın görkəmli ziyalıları və eyni zamanda müxtəlif zümrədən olan insanlar arasında savadlı və istedadlı tarixçi-alim kimi tanınan Maarif Xalıqovun ürəyində daima Bəzz qalasına səyahət etmək arzusu olub və nəhayət bu gözəl alim 2012-ci il avqust ayının 7-də bu arzusunu gerçəkləşdirib. Fikrimizcə, istər min illərin sınağından çıxmış, tarixin amansız və qanlı-qadalı müharibələrinə sinə gərmiş Bəzz qalasını, istərsə də digər qalalarımıza səyahət etmək azdır və gərək belə ziyarətlər zamanı həmin abidələri kitab kimi oxumağı bacarasan və onların tikilmə üslubundan, interyer quruluşundan, tikilmə tarixindən xəbərdar olasan və bunlar haqqında nə isə gərəkli bir elmi fikir söyləyəsən.

Bu baxımdan Maarif müəllimin Azərbaycan Milli Elmlər Akademi-yasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə 2019-cu ildə nəşr etdirdiyi "Bəzz qalası" kiçik həcmli əsəri xüsusi maraq doğurur.

Əsəri oxuduqca hiss olunur ki, bu zəhmətkeş alim qaladakı qədim

tikililəri maraqla gəzmiş, yeraltı anbarlara, qurğulara, yaşayış otaqlarının



uçuqlarına baxmış, qala haqqında söylənilən yarıreal-yarıəfsanəvi söhbətləri dinləmiş, müxtəlif yerlərdə ərəb qrafikası ilə yazılmış daş kitabələri ilə tanış olmuş və nəticədə Bəzz qalasını bütün koloriti ilə əks etdirən gözəl bir mənbə yarada bilmişdir.

Hərdən onu da düşünürəm ki, çox vaxt "Babək qalası" kimi adlandırılan Bəzz qalası ilə bağlı yüzlərlə bayatı, əfsanə, rəvayət, tarixi hekayət var, səyyahların və tarixçilərin bir-birindən maraqlı qeydləri var ki, bütün bunlar nə Güneydə, nə də Quzey Azərbaycanında mükəmməl bir şəkildə toplanıb nəşr edilməyib. Deyəsən, Maarif müəllim bu istiqamətdə də işlər görür ki, bu da alqışlanmalıdır. Təkcə bir faktı qeyd edə bilərəm ki, bu günlərdə Maarif müəllim "Bütöv Azərbaycan" qəzetində "Rəhim Əsədullahinin yaradıcılığında Bəzz mövzusu" adlı irihəcmli məqalə çap etdirmiş və bu məqalə ozucular



tərəfindən olduqca maraqla qarşılanmış, sevilə-sevilə oxunmuşdur.

Bəzz qalası düz 22 il sərasər Babəkin arxa çevirdiyi istehkam olub. Maarif Xalıqovun əsərdə verdiyi Bəzzlə bağlı çox qiymətli fotolara diqqətlə baxıram və nə vaxtsa yaradıcılığını sevə-sevə oxuduğum Sabir Rüstəmxanlının aşağıdakı fikirləri beynimdən süzülüb gəlir: " Ərəb istilasının yüksəlişi çağında böyük Azərbaycan sərkərdəsi Babək xilafət ordularının burnunu ova-ova



816-cı ildən 838-ci ilədək Şərqi lərzəyə saldı. Allah, peyğəmbər, islam adına sarılıb bu yolda ölümü sevinclə qəbul edən və buna görə də məğlubiyyət nə olduğunu bilməyən, din mücahidi olmaları ilə qanadlanan, xürafat dumanında qarşılarına çıxan hər şeyi ayaqlayıb keçən və Şərqin özünə qədərki yüksək mədəniyyətinin izlərini yer üzündən silən ərəb orduları 22 il Azərbaycanda darmadağın olub gerı qaçdılar. Bəlkə, Şərqin üç döyüşkən xalqının heç birinə üstünlük verə bilməyən qədim ərəb məsəli də: " Ərəb türkün qabağında dura bilməz, türk rumlunun, rumlu da ərəbin" - elə o illərdə yaranıb. Bəlkə, Babəkizmdən də əvvəl yaranıb bu məsəl! Hər halda, Ərəb imperiyasının yüksəlişi dövründə öz döyüş keyfiyyətləri ilə çox qürrə-lənməyi sevən ərəblərin dili ilə deyilmiş bu sözlərlə azərbaycanlıların ulu babalarının qüdrəti etiraf olunur."

M.Xalıqovun nəfis şəkildə tərtib etdiyi bu foto-albom xarakterli əsərinin son səhifəsini S.Rüstəmxanlının bu dəyərli fikirlərinin təsiri altında bağlayır, alimə bu araşdırma yollarında uğurlar diləyirəm! Allah səni qorusun!



***Çapar*** Fərid Kazımlı

***müstəqil araşdırmacı***

***04.11.2019***